# Yeseninlə başlayan dostluq

Gürcüstandan olan bir alim kimi adını eşitsəm də şəxsi tanışlığım yox idi professor Əmirxan Xəlilovla. Əslində hələ də şəxsən görüşməmişik. Amma bir neçə dəfə telefon danışıqlarımız olub. Məhz bu "tanışlığımız" o qədər səmimi, o qədər mehriban hisslərlə müşaiyət olunub ki, sanki onunla 50 ilin dostuyuq. Həmsöhbətin (canlı olsun, telefonda olsun, fərq etməz) dilindən deyil, qəlbindən axan, süzülən belə səmimiyyəti, belə doğmalığı, belə şirinliyi mən, barmaqla sayıla biləcək qədər bir neçə nəfərdə, o cümlədən filosof Camal Mustafayevdə, xalq şairi Nəriman Həsənzadədə görmüşəm. Hardan gəlir bunlar, bu xususiyyətlər? Yəqin ki, boya-başa çatdığı Gürcüstanın havası, suyu ilə yanaşı, demək olar ki, həyatını həsr etdiyi yaradıcı insanların əsərlərindən qazanıb bunları Əmirxan Xəlilov. Cəfər Cabbarlıdan öyrəndiyi müdriklik, Məmməd Araz, Əliağa Kürçaylı, Yesenin, Blok poeziyasından gələn səmimiyyət və şirinlik, Əli Nazimdən "içdiyi günəş", Zəlimxan Yaqub yaradıcılığından gələn el-oba, torpaq sevgisi – bax bunlardır Əmirxan Xəlilov şəxsiyyətini işıqlandıran.

Bir neçə il bundan əvvəl dahi rus şairi Serqey Yeseninin yaradıcılığının Bakı dövrü ilə bağlı araşdırmalara başlamışdım. Odur ki, ilk növbədə indiyə qədər Yeseninin Bakı dövrü ilə bağlı yazıları əldə edib oxumaqla məşğul idim. Oxuduğum ilk əsərlərdən biri Əmirxan Xəlilovun "Sergey Yesenin: Mərdəkanın qızıl payızı və yazı" kitabı oldu. Kitabı oxuyarkən "Deyəsən bu da mənim kimi Yesenin dəlisidir" deyə bir fikir keçdi qəlbimdən. Həmin dövrdə bir neçə dəfə görüşməyə can atsam da alınmadı. Görünür qismət deyilmiş. Bundan sonra hara baxsam da gözüm Əmirxan Xəlilovun yazılarını axtarırdı. Beləcə, Yesenin yaradıcılığı ilə bağlı 10-dan çox əsərinə rast gəldim. Bütün yazılarında müəllifin Yesenin şəxsiyyətinə, Yesenin fenomeninə sevgisi hiss edilir, Yesenin ruhunun ona hakim kəsildiyi sezilirdi. Əlbəttə, yalnız bu halda tədqiq etdiyin şəxsiyyət və onun yaradıcılığı haqqında layiqli əsər

yarada bilərsən. Bax beləcə, Yeseninlə başladı, Əmirxan Xəlilovla bizim hələ də əyaniləşməmiş “möhkəm dostluğumuz”.

Dekabrin 5-də axşam saatlararına mənə zəng etdi. Xoş səmimi telefon görüşməsindən sonra səhəri gün BDU-da keçiriləcək 75 illik yubileyinə dəvət etdi. Açığını deyim ki, bu mənim üçün doğrudan da xöş bir sürpriz idi. Ədəbiyyatşünaslığımızda öz sözünü demiş “ağır otur, batman gəl” bir ağsaqqal alimin mənə bu diqqəti əlbəttə qürurverici idi. Amma təəssüf, çox təəssüf ki, əvvəlcədən planlaşdırılmış çox vacib bir məsələ ilə bağlı o məclisdə iştirak edə bilmədim. Demək, bu dəfə də qismət deyilmiş.

Bu yazıda mənim məqsədim qəti Əmirxan Xəlilovun həyatı, yaradıcılığı, ömür yolu haqqında danışmaq deyil. Bu, hər-hansı bir alimin yaradıcılığını tədqiq edənlərin işidir, mən isə sadəcə olaraq, bir neçə ürək sözümü ünvanlayaraq, gec də olsa, onu təbrik etmək istədim.

Əziz Əmirxan müəllim!

Sizi 75 illik yubileyiniz münasibətilə təbrik edir, Sizə indiyə qədər keçirdiyiniz kimi mənalı uzun ömür, yaradıcılıq uğurları arzulayıram. Qoy həmişə yolunuz açıq, qəlbiniz və qələminiz nurlu olsun.

Biz Sizinlə mütləq görüşəcəyik. Sağlıq olsun...

**Dərin hörmət və səmimiyyətlə,**

**İsaxan İsaxanlı**

***Mənbə:***

***“Kredo” qəzeti, № 02 (712), 12 yanvar 2013-cü il.***